İPƏK YOLU, No.3, 2026, səh.327-336
https://doi.org/10.30546/SI.2026.03.01.1028

# QƏŞƏM İSABƏYLİNİN POEZİYASINDA VƏTƏNPƏRVƏRLİK XƏTTİ

**Məsmə Yusifzadə**

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Bakı, Azərbaycan
e-mail: mesumehasanova@gmail.com

**Xülasə.** Azərbaycan uşaq ədəbiyyatında vətənpərvərlik ideyası milli-mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsində mühüm funksiyaya malikdir. Bu baxımdan Qəşəm İsabəylinin poeziyası uşaq şeirində Vətən anlayışının bədii-fəlsəfi məzmununu yeni poetik çalarlarla zənginləşdirən nümunələr sırasında xüsusi yer tutur. Qarabağ mövzusuna həsr edilmiş şeirlərdə müharibənin yaratdığı mənəvi ağrılar, şəhidlik, qazi taleyi, qəhrəmanlıq, milli həmrəylik və tarixi ədalət ideyaları uşağın dünyagörüşünə uyğun formada poetikləşdirilir.

**Açar sözlər:** Qəşəm İsabəyli, uşaq ədəbiyyatı, uşaq poeziyası, vətənpərvərlik, Qarabağ, Vətən obrazı, şəhidlik, milli kimlik.

**THE PATRIOTIC THEME IN THE POETRY OF GASHAM ISABEYLI**

**Masma Yusifzada**
*Azerbaijan State Pedagogical University, Baku, Azerbaijan*
*Museum of Azerbaijani Literature named after Nizami Ganjavi, Baku, Azerbaijan*

**Abstract.** The idea of patriotism occupies a significant place in Azerbaijani children's literature, serving as an important means of transmitting national and moral values to future generations. In this context, Gasham Isabeyli's poetry holds a distinctive position among works that enrich the artistic and philosophical interpretation of the concept of the Motherland in children's poetry with new poetic dimensions. In his poems devoted to the Karabakh theme, the spiritual suffering caused by war, martyrdom, the fate of war veterans, heroism, national solidarity and the idea of historical justice are poetically represented in a manner appropriate to children's perception and worldview.
**Keywords:** Gasham Isabeyli, children's literature, children's poetry, patriotism, Karabakh, image of the Motherland, martyrdom, national identity.

## 1. Giriş

Uşaq ədəbiyyatı bədii-estetik dəyərlərin daşıyıcısı olmaqla yanaşı, cəmiyyətin ideya-mənəvi təcrübəsinin gələcək nəslə ötürülməsini təmin edən mühüm mədəni institutlardan biridir. Bu ədəbiyyat sahəsinin spesifikliyi onun yalnız estetik zövq formalaşdırmaq funksiyası ilə məhdudlaşmamasında, eyni zamanda şəxsiyyətin sosial, mənəvi və vətəndaşlıq keyfiyyətlərinin təşəkkülündə fəal iştirak etməsində özünü göstərir.

Tədqiqatın metodoloji əsasını müqayisəli-tipoloji, struktur-semantik, mətn (tekstoloji) və poetik təhlil metodları təşkil edir. Uşaq ədəbiyyatında vətənpərvərlik anlayışının nəzəri əsaslarının araşdırılmasında müqayisəli-tipoloji metoddan, Qəşəm İsabəylinin şeirlərində Vətən konsepsiyasının, Qarabağ mövzusunun, obrazlar sisteminin və bədii ifadə vasitələrinin öyrənilməsində isə mətn, struktur-semantik və poetik təhlil metodlarından istifadə edilmişdir. Material bazasını Qəşəm İsabəylinin "Leyləyin intiqamı" və "Əsərləri toplusu"nun I cildi, həmçinin mövzu ilə bağlı Azərbaycan və xarici elmi-pedaqoji mənbələr təşkil edir.

Tədqiqatın məqsədi Qəşəm İsabəylinin uşaq poeziyasında vətənpərvərlik ideyasının bədii ifadə xüsusiyyətlərini, Vətən konsepsiyasının poetik modelini və Qarabağ mövzusunun uşaqların milli-mənəvi tərbiyəsindəki funksiyasını müəyyənləşdirməkdir. Bu məqsədə uyğun olaraq şairin vətənpərvərlik mövzulu şeirlərinin ideya-məzmun xüsusiyyətləri, poetik vasitələri, obrazlar sistemi və tərbiyəvi-estetik imkanları təhlil edilmişdir.

Tədqiqatın predmetini Qəşəm İsabəylinin vətənpərvərlik mövzusunda yazdığı şeirlərdə Vətən anlayışının poetik interpretasiyası, milli kimlik, Qarabağ mövzusu, şəhidlik, qəhrəmanlıq və vətəndaşlıq tərbiyəsinin bədii ifadə xüsusiyyətləri təşkil edir.

Azərbaycan uşaq ədəbiyyatının əsas tədqiqatçılarından Qara Namazov uşaq ədəbiyyatını *“mənəvi-estetik və ideya-məfkurəvi tərbiyə məktəbi”* kimi xarakterizə edərək qeyd edir ki, bu ədəbiyyat *“mənəvi-estetik və ideya məfkurəvi tərbiyə məktəbinə çevrilmişdir. Bu ədəbiyyat yeniyetmələri əməksevər, namuslu, vətənpərvər, milli və bəşəri olmaq ruhunda tərbiyə edir. Öz qaynaqlarını əsrlərin dərinliyindən alan Azərbaycan uşaq ədəbiyyatı təravətli, təsirli və uzunömürlüdür”* [6, s.8]. Bu münasibətdə uşaq ədəbiyyatının mahiyyəti yalnız bədii yaradıcılıq hadisəsi kimi deyil, həm də şəxsiyyətin formalaşmasına yönəlmiş sistemli tərbiyə mexanizmi kimi müəyyənləşdirilir.

Uşaq ədəbiyyatının tərbiyəvi potensialı ilk növbədə onun uşağın dünyagörüşünün formalaşmasına göstərdiyi təsirlə bağlıdır. *“Uşağın gələcək dünyagörüşünün formalaşmasında, onun layiqli vətəndaş kimi böyüməsində uşaq ədəbiyyatını əvəz edə biləcək ikinci bir vasitə yoxdur”* [7, s.234]. Bu mülahizə uşaq ədəbiyyatının pedaqoji funksiyasını daha geniş kontekstdə dəyərləndirməyə imkan verir. Belə ki, uşağın sosial mühit haqqında təsəvvürləri, milli mənsubiyyət duyğusu, əxlaqi meyarları və davranış modelləri əhəmiyyətli dərəcədə məhz bədii mətnlər vasitəsilə formalaşır. Erkən yaşlarda qazanılmış mənəvi təsəvvürlər sonrakı həyat mərhələlərində fərdin vətəndaş mövqeyinin əsasını təşkil edir.

Vətənə münasibət insanın mənəvi aləmində ən fundamental dəyərlərdən biri hesab olunur. *“İnsan özünü dərk etməyə başladığı andan etibarən onun həyata baxışında və dünyagörüşündə vətənə sevgi duyğuları, vətənpərvərlik hissləri, bütün istəklərdən yüksəkdə durur”* [1, s.113]. Burada diqqəti cəlb edən cəhət vətənpərvərliyin sonradan qazanılan ideoloji mövqe deyil, insanın mənəvi inkişafı ilə paralel şəkildə formalaşan daxili ehtiyac kimi təqdim edilməsidir. Deməli, vətənpərvərlik hissinin təşəkkülü fərdin özünüidentifikasiya prosesinin ayrılmaz tərkib hissəsi kimi meydana çıxır. Lakin vətənpərvərlik yalnız emosional bağlılıq səviyyəsində dərk edilən anlayış deyildir. Bu hissin sosial və mənəvi məzmun qazanması onun şüurlu xarakter almasından asılıdır. Belinskinin *“Vətənə məhəbbət kor bir hiss deyil, insanın onun qarşısındakı borcunu şüurlu şəkildə dərk etməsidir”* [8, s.26] fikri vətənpərvərliyin məhz vətəndaşlıq məsuliyyəti ilə vəhdətdə meydana çıxdığını göstərir. Eyni fikrin davamı olaraq uşaq kitabının “*bu şüura aparan ilk addım”* kimi qiymətləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Belə yanaşma uşaq ədəbiyyatını vətəndaşlıq şüurunun formalaşdırılması prosesinin başlanğıc mərhələsi kimi nəzərdən keçirməyə imkan verir.

Belinskinin bu mövqeyi Uşinskinin pedaqoji konsepsiyası ilə səsləşir. Uşinski *"necə ki, özünə məhəbbətsiz insan yoxdur, eləcə də Vətənə sevgisiz insan yoxdur və məhz bu sevgi tərbiyənin insan qəlbinə gedən doğru açarını verir"* [10, s.21] fikri ilə vətənpərvərliyi insan təbiətinin ayrılmaz xüsusiyyəti kimi səciyyələndirir. Uşinskinin yanaşmasında vətən sevgisi tərbiyə prosesinin xarici məqsədi deyil, onun daxili hərəkətverici qüvvəsi kimi çıxış edir. Bu fikir vətənpərvərliyin yalnız siyasi və ya ideoloji kateqoriya deyil, həm də mənəvi-psixoloji fenomen olduğunu göstərir. Beləliklə, Belinskinin vətəndaşlıq məsuliyyəti ilə bağlı yanaşması ilə Uşinskinin mənəvi bağlılıq konsepsiyası birlikdə vətənpərvərliyin həm emosional, həm də şüurlu tərəflərini ortaya qoyur.

Müasir metodik tədqiqatlarda da vətənpərvərlik tərbiyəsinin bədii mətn vasitəsilə həyata keçirilməsi xüsusi vurğulanır. *"Vətənpərvərlik mövzusunda oxunmuş əsərlərin müzakirəsi uşaqlara qəhrəmanların igidliklərini anlamaq və qiymətləndirmək imkanı yaradır, eyni zamanda ölkəyə və xalqa münasibətdə qürur hissinin formalaşmasına xidmət edir"* [9, s.47]. Burada diqqət çəkən məqam vətənpərvərlik hissinin yalnız mətnin oxunması ilə deyil, onun mənalandırılması və müzakirəsi prosesi vasitəsilə inkişaf etməsidir. Başqa sözlə, bədii əsər təkcə estetik informasiya mənbəyi deyil, həm də uşağın mənəvi təcrübəsini zənginləşdirən kommunikativ mühit yaradır.

Uşaq ədəbiyyatında vətənpərvərlik ideyasının mahiyyətinə dair müasir Azərbaycan tədqiqatlarında da maraqlı yanaşmalar müşahidə olunur. Əhmədova *"uşaq ədəbiyyatında vətənpərvərlik ideyasının siyasi xarakter daşımadığını"* vurğulayaraq qeyd edir ki, *"bu sahədə azərbaycançılıq düşüncəsi və milli dünyagörüş bütöv şəkildə təqdim olunur"* [3, s.55]. Bu yanaşma vətənpərvərlik anlayışının ideoloji çərçivədən çıxaraq mədəni identiklik və milli mənsubiyyət kateqoriyası kimi izah edilməsinə imkan verir. Uşaq ədəbiyyatında Vətən obrazı dövlətçilik şüarlarından daha çox dil, mədəniyyət, tarix, mənəvi dəyərlər və milli yaddaş kontekstində təqdim edilir. Nəticədə uşağın şüurunda Vətən anlayışı siyasi kateqoriya deyil, mənsub olduğu mədəni mühitin təbii tərkib hissəsi kimi formalaşır.

## 2. Azərbaycan uşaq poeziyasında vətənpərvərlik ənənəsi və Qəşəm İsabəyli yaradıcılığı

Uşaq ədəbiyyatında vətənpərvərlik ideyasının formalaşdırılması Azərbaycan ədəbi fikrinin müxtəlif inkişaf mərhələlərində öz aktuallığını qoruyub saxlamışdır. Bu istiqamətdə yaranmış əsərlərdə Vətən anlayışı doğma torpaq, ana dili, milli tarix, xalqın qəhrəmanlıq salnaməsi və mənəvi dəyərlər sistemi ilə vəhdətdə təqdim edilmişdir. Xalq yaradıcılığı nümunələrindən başlayaraq yazılı uşaq ədəbiyyatına qədər uzanan bu ənənə müxtəlif dövrlərdə fərqli bədii-estetik formalarda ifadə olunsa da, onun əsas ideya xəttini milli mənsubiyyət hissinin və vətəndaşlıq şüurunun formalaşdırılması təşkil etmişdir. Təsadüfi deyil ki, şairin yaradıcılığı ilə tanış olan Babayeva yazır: "*Uşaqlar üçün yazılmış şeirlərin axıcı ahəngi, körpə ruhuna uyğun sadəliyi və təbiiliyi, bir də şeirlərin sadə deyim tərzi məni aldı"* [2, s.1].

Vətən obrazının poetik təqdimatı, milli-mənəvi dəyərlərin bədii ifadəsi və qəhrəmanlıq ideyasının uşaqların yaş xüsusiyyətlərinə uyğun şəkildə işlənməsi xüsusi əhəmiyyət kəsb edir. Uşaq şeirinin spesifikası nəzərə alındıqda vətənpərvərlik ideyasının mürəkkəb siyasi və ya tarixi mülahizələrdən deyil, daha çox sadə, anlaşıqlı və emosional obrazlar vasitəsilə təqdim edildiyi müşahidə olunur. Doğma təbiət, ana dili, bayraq, torpaq, şəhidlik, qəhrəmanlıq və milli birlik kimi anlayışlar uşağın qavrayışına uyğun poetik formaya salınaraq vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsinə çevrilir.

Müasir Azərbaycan uşaq ədəbiyyatında bu ənənəni uğurla davam etdirən sənətkarlardan biri də Qəşəm İsabəylidir. Şairin uşaqlar üçün qələmə aldığı əsərlərdə vətənpərvərlik ideyası müxtəlif məzmun qatlarında öz ifadəsini tapır. Onun poeziyasında Vətən yalnız coğrafi məkan anlayışı ilə məhdudlaşmır, milli kimliyin, mənəvi yaddaşın, tarixi varisliyin və vətəndaşlıq məsuliyyətinin simvolu kimi təqdim olunur. Bu əsərlərdə uşaqların yaş xüsusiyyətləri nəzərə alınaraq mürəkkəb ictimai-mənəvi məsələlər sadə poetik ifadələr və aydın obrazlar vasitəsilə çatdırılır.

## 3. Vətən anlayışının poetik-fəlsəfi modeli

Uşaq poeziyasında vətənpərvərlik ideyasının bədii ifadəsi müxtəlif poetik modellər üzərində qurulur. Ənənəvi yanaşmada Vətən doğma torpaq, ana yurd, təbiət, dövlət rəmzləri və tarixi yaddaş vasitəsilə təqdim edilir. Qəşəm İsabəylinin vətən mövzusunda qələmə aldığı şeirlər isə bu ənənəni davam etdirməklə yanaşı, ona yeni semantik çalarlar gətirir. Şair Vətəni yalnız coğrafi məkan və ya siyasi sərhədlərlə müəyyənləşdirilən anlayış kimi deyil, insanın mənəvi varlığının ayrılmaz hissəsi, milli kimliyin və daxili bütövlüyün ifadəsi kimi təqdim edir. Bu baxımdan, müəllifin eyni mövzuya həsr etdiyi bir neçə şeirin birlikdə təhlili onun vətən konsepsiyasının bütöv poetik sistem təşkil etdiyini göstərir.

Bu sistemin əsasını təşkil edən şeirlərdən biri “Vətən” şeiridir. Şeir ilk baxışdan sadə poetik konstruksiya təsiri bağışlasa da, onun semantik quruluşunda Vətən anlayışının mərhələli şəkildə yenidən mənalandırılması prosesi müşahidə olunur:

*“Vətən torpaq, daş deyil,*
*Vətən vətəndaş deyil.*
*Can evidir Vətən,*
*Hiss-həyəcandır Vətən!”* [5, s.12].

Şeirin ilk iki misrasında müəllif ardıcıl inkar üsulundan istifadə edir. “Torpaq”, “daş” və “vətəndaş” sözləri Vətənin ümumi qəbul edilmiş məna qatlarını ifadə etsə də, “deyil” xəbəri vasitəsilə həmin anlayışların kifayət etmədiyi göstərilir. Burada məqsəd Vətənin torpaq olmadığı fikrini irəli sürmək deyil, onun məzmununun təkcə fiziki məkanla məhdudlaşdırıla bilməyəcəyini vurğulamaqdır. Başqa sözlə, müəllif oxucunu stereotip düşüncədən

uzaqlaşdıraraq Vətənin mahiyyətini daha dərin mənəvi müstəvidə dərk etməyə istiqamətləndirir.

Şeirin kulminasiya nöqtəsini təşkil edən "Can evidir Vətən" misrası Vətənin poetik-fəlsəfi modelini müəyyənləşdirir. Azərbaycan poeziyasında "can evi" ifadəsi insanın ən müqəddəs və toxunulmaz daxili aləmini bildirən metaforadır. Bu metaforanın Vətən anlayışı ilə əlaqələndirilməsi nəticəsində Vətən xarici obyekt statusundan çıxaraq insanın mənəvi kimliyinin ayrılmaz komponentinə çevrilir. Son misrada işlədilən "*Hiss-həyəcandır Vətən*" ifadəsi isə bu modeli tamamlayır. Burada didaktik çağırış və ya birbaşa öyüd yoxdur, əvəzində uşaq Vətəni hiss və duyğular vasitəsilə qavramağa istiqamətləndirilir.

Müəllifin vətən konsepsiyası yalnız emosional təqdimatla məhdudlaşmır. "Vətən" anlayışı digər şeirdə tamam fərqli poetik üsulla - sözün daxili quruluşunun təhlili vasitəsilə izah olunur. Şair yazır:

*"Böldüm hecaya "Vətən"i - "Və-Tən",*
*Nə deməkdi "Və", nə deməkdi "Tən"?..."* [5, s.13].

Azərbaycan uşaq poeziyasında sözün morfoloji və fonetik quruluşunun poetik vasitəyə çevrilməsi nadir hallarda rast gəlinən hadisədir. Qəşəm İsabəyli isə uşağın dil öyrənmə prosesindən gələn marağını poetik düşüncəyə çevirir. Şeir ilk baxışdan dil oyunu təsiri bağışlasa da, onun arxasında dərin semantik məna dayanır. Müəllif "və" bağlayıcısının birləşdirici funksiyasını yada salaraq onu milli birlik ideyası ilə əlaqələndirir. Ardınca "tən" komponentinin müxtəlif mənalarını sadalayır və onların içərisindən "yarı" mənasını seçərək poetik nəticəyə gəlir:

*"Topla bu ayrı "Yarı"ları sən;*
*Bax, bu birlikdən yaranıb Vətən!*
*Vətən - yəni biz; bir qəlbdə - canı...*
*Güneyli, Quzeyli Azərbaycanım!"* [5, s.13].

Bu misralarda artıq Vətən anlayışı fərdi hiss olmaqdan çıxaraq milli bütövlüyün simvoluna çevrilir. Xüsusilə "Güneyli, Quzeyli Azərbaycanım" ifadəsi müəllifin vətən anlayışını inzibati sərhədlərlə məhdudlaşdırmadığını göstərir. Lakin diqqətəlayiq cəhət ondan ibarətdir ki, bu fikir siyasi şüar formasında deyil, uşağın anlaya biləcəyi dil oyunu və söz assosiasiyaları vasitəsilə ifadə edilir. Şair uşağı mürəkkəb siyasi terminlərlə yükləmir; əksinə, "yarı" obrazı üzərində qurduğu poetik məntiq vasitəsilə bütövlük ideyasını emosional şəkildə çatdırır. Bu baxımdan, "Vətən - yəni biz..." şeiri yalnız vətənpərvərlik mətnlərindən biri deyil, həm də uşaq dil təfəkkürünün poetik imkanlarını nümayiş etdirən maraqlı nümunədir. Burada müəllif həm dil faktını öyrədir, həm də həmin fakt üzərində milli ideya formalaşdırır. Didaktika ilə poetiklik arasında qurulan bu tarazlıq Qəşəm İsabəylinin yaradıcılıq fərdiyyətini müəyyənləşdirən əsas xüsusiyyətlərdəndir.

Vətən anlayışının daha bir semantik qatını "Azərbaycan" şeiri təşkil edir:

*"İki hecadır - "Ana",*

*İki hecadır - "Ata",*
*İki hecadır - "Vətən".*
*Bəs nədən,*
*İkianalı olmur...*
*İkiatalı olmur...*
*Bəs nədən,*
*İkiparadır Vətən?!"* [5, s.14].

Bu şeir Qəşəm İsabəylinin vətən mövzusunda yazdığı ən təsirli poetik nümunələrdən biridir. Şair burada uşaq məntiqindən çıxış edir. Şeir adi müqayisə ilə başlayır: "Ana", "Ata" və "Vətən" sözlərinin hər üçü iki hecadan ibarətdir. Uşaq üçün bu, sadə fonetik müşahidədir. Lakin müəllif məhz bu sadə müşahidədən dərin ictimai-fəlsəfi nəticə çıxarır. Ana və ata bölünməz dəyərlərdirsə, niyə Vətən parçalanmış vəziyyətdədir?

Şeirin poetik təsir gücü də elə buradan qaynaqlanır. Müəllif parçalanmış Vətən mövzusunu birbaşa siyasi ritorika ilə təqdim etmir. O, uşağın dil və məntiq təfəkkürünə uyğun sadə müqayisə qurur və cavabı oxucunun öz düşüncəsinə buraxır. Bu üsul didaktik təlqindən daha güclü emosional təsir yaradır. Uşaq sualın cavabını özü axtarmağa başlayır və məhz həmin axtarış prosesi vətən anlayışının mənəvi dəyər kimi dərk edilməsinə xidmət edir.

## 4. Qəşəm İsabəylinin Qarabağ mövzusunda yazdığı şeirlərin ideya-bədii xüsusiyyətləri

Qəşəm İsabəylinin yaradıcılığında Qarabağ mövzusu müasir Azərbaycan uşaq poeziyasının aparıcı istiqamətlərindən biri kimi diqqəti cəlb edir. Şair Qarabağ həqiqətlərini, Vətən uğrunda mübarizəni, şəhidlik zirvəsini və xalqın milli birliyini uşaqların yaş xüsusiyyətlərinə uyğun bədii vasitələrlə təqdim etməyə nail olmuşdur. Onun bu mövzuda yazdığı şeirlər yalnız müharibə hadisələrinin poetik salnaməsi deyil, eyni zamanda vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi çıxış edir. Müəllif hadisələri uşağın baxış bucağından təqdim etməklə oxucuda həm emosional təsir yaradır, həm də milli yaddaşın formalaşmasına xidmət edir. Bu şeirlərdə müharibə təkcə silahlı qarşıdurma deyil, mənəvi dəyərlərin, milli kimliyin və tarixi ədalətin müdafiəsi kimi təqdim olunur.

Qəşəm İsabəylinin "İntiqam" şeiri 2020-ci ildə Gəncəyə edilən raket hücumlarının doğurduğu faciəvi hadisələr əsasında qələmə alınmışdır. Şair müharibənin dəhşətlərini böyüklərin deyil, uşağın gözü ilə təqdim etdiyindən əsər daha təsirli emosional çalar qazanır. Şeirin başlanğıcında müəllif konkret tarixi faktı xatırladır:

*"Ay ata, ermənilər*
*Raketlərlə vurubdur,*
*Gecə yatdığı yerdə*
*Gəncəni..."* [4, s.281].

Bu misralar müharibənin beynəlxalq humanitar hüququn prinsiplərini pozaraq dinc əhaliyə qarşı yönəldildiyini göstərir. Şair hadisəni sadəcə təsvir etmir, onun doğurduğu mənəvi sarsıntını uşağın dili ilə ifadə edir. Əsərin əsas bədii xüsusiyyəti ata ilə oğul arasında qurulan dialoqdur. Ata qələbəni və alınmış intiqamı təsəlli vasitəsi kimi təqdim etsə də, uşaq daha dərin humanist mövqedən çıxış edir:

*“Nə xeyri varmış, ata,*
*Dirilib duracaqmı*
*Ölüb-itənlərimiz?!”* [4, s.281].

Bu ritorik sual əsərin ideya yükünü daşıyır. Burada müəllif göstərir ki, heç bir qələbə şəhidlərin həyatını geri qaytara bilməz.

“Niyə bəs” şeirində müəllif uşağın məsum sualları vasitəsilə Qarabağ münaqişəsinin beynəlxalq aspektlərini gündəmə gətirir. Şeir dialoq formasında qurulmuşdur və uşağın ardıcıl sualları böyüklərin siyasi davranışlarının məntiqini sorğulayır.

*“Niyə bəs Qarabağa*
*Silah daşıyan Rusun*
*Qarşısını kəsməyir*
*İran müsəlmanları!?”* [4, s.282].

Burada müəllif ritorik sualdan istifadə etməklə uşağın saf düşüncəsinin böyüklərin siyasi maraqlarından daha səmimi olduğunu göstərir. Şeirin bədii təsir gücü məhz uşaq təfəkkürünün sadəliyi ilə mürəkkəb geosiyasi hadisələrin qarşılaşdırılmasında ifadə olunur. Oxucu hadisələri ideoloji təbliğat prizmasından deyil, vicdan və ədalət meyarı ilə qiymətləndirməyə sövq edilir.

*“Məlik Məmməd öldürdüyü əjdaha dirilibmiş”* şeiri Qəşəm İsabəylinin folklor motivlərindən yaradıcılıqla istifadə etməsinin uğurlu nümunəsidir. Müəllif Azərbaycan nağıllarının məşhur qəhrəmanı Məlik Məmmədi müasir Qarabağ müharibəsi ilə əlaqələndirərək simvolik obraz yaradır.

*“Demək, Məlik Məmmədin*
*Öldürdüyü Əjdaha*
*Dirilib gəlib cana?!*
*Atam gedib onunla*
*Döyüşə girib, ana?!”* [4, s.284].

Əjdaha burada şər qüvvələrin, erməni işğalçılarının bədii rəmzinə çevrilmişdir. Uşağın təfəkküründə nağıl qəhrəmanları ilə müasir qəhrəmanların eyniləşdirilməsi vətənpərvərlik hissinin daha asan formalaşmasına xidmət edir. Şair nağıl poetikasını müasir döyüş reallıqları ilə birləşdirərək göstərir ki, hər dövrdə Vətəni qoruyan qəhrəmanlar olmuşdur. Əsərdə metafora və alleqoriya əsas bədii vasitələr kimi çıxış edir.

"Şəhid uşaqlarımız" şeirində müəllif müharibənin ən ağır nəticələrindən biri olan dinc insanların qətlə yetirilməsini ön plana çəkir. Şair düşmənin qorxaqlığını Azərbaycan əsgərinin mərdliyi ilə müqayisə edərək kəskin kontrast yaradır.

*"Gecə yatdığımız yerdə*
*Rusiya silahıyla*
*Vurub, öldürür bizi!"* [4, s.285].

Şeirdə düşmən obrazı açıq döyüşdən çəkinən, gizli yollarla hücum edən tərəf kimi təqdim edilir. Bu qarşılaşdırma uşaqlarda mərdlik və qorxaqlıq anlayışlarını fərqləndirmək baxımından mühüm əhəmiyyət daşıyır. Əsər həm də şəhidlik məfhumunun müqəddəsliyini dolayısı ilə ifadə edir və uşaqlarda Vətən uğrunda fədakarlıq duyğusunu formalaşdırır.

"Sülhü neyləyirik biz..." şeiri Qarabağ mövzusunda yazılmış ən ideoloji yüklü əsərlərdən biridir. Müəllif ata ilə oğul arasında dialoq yaradaraq müharibə və sülh anlayışlarını uşağın düşüncə səviyyəsində izah edir.

*"Sən deyən deyil, bala,*
*Düşmənlə aramızda*
*Sülh elan olunubdur..."*

Lakin uşaq bu fikirlə razılaşmır və haqlı sual verir:

*"Məgər azad olubdur*
*İşğaldan Vətənimiz?"* [4, s.286].

Bu sual uşağın milli şüurunun göstəricisi kimi çıxış edir. Şair burada göstərir ki, torpaq işğal altında olduğu müddətdə sülh nisbi xarakter daşıyır. Əsərin sonunda müəllif qələbəyə inamı gücləndirərək milli ruhun sarsılmazlığını nümayiş etdirir. Dialoq forması, ritorik suallar və canlı danışıq dili əsərin emosional təsirini artıran əsas bədii vasitələrdir.

"Şəhid balaları" şeiri Qarabağ müharibəsinin ən kövrək mövzularından biri olan şəhid övladlarının taleyinə həsr olunmuşdur. Müəllif müharibədən sonrakı həyatın mənəvi yükünü uşağın məktəb mühitində təqdim edir.

*"Şəhid uşağı oxuyur...*
*Partasının qarşısında*
*Atasının şəkli..."* [4, s.288].

Ata şəkli ilə Azərbaycan bayrağının yanaşı yerləşdirilməsi güclü simvolik məna daşıyır. Bayraq Vətəni, ata şəkli isə onun uğrunda canından keçmiş qəhrəmanı təmsil edir. Şair göstərir ki, şəhid övladları üçün Vətən anlayışı ailə anlayışı ilə vəhdət təşkil edir. Kədər hissi ilə yanaşı, müəllif həmin uşaqlarda qürur duyğusunun da yaşadığını nümayiş etdirir.

"Dron" şeiri Qarabağ müharibəsinin müasir texnoloji xarakterini uşaqlara anlaşıqlı formada çatdıran maraqlı poetik nümunədir. Əsərdə dron anlayışı sadə dialoq vasitəsilə izah

olunur. Müəllif müasir döyüş texnologiyalarını uşaqların gündəlik danışıq dili ilə əlaqələndirərək mövzunu onların dünyagörüşünə yaxınlaşdırır. Şeirdə yumor elementləri ilə ciddi siyasi hadisələr arasında uğurlu tarazlıq yaradılmışdır. Bu xüsusiyyət müəllifin uşaq psixologiyasını dərindən bilməsinin göstəricisidir. Müharibə mövzusu ağır emosional yük yaratmadan, maarifləndirici məzmunda təqdim edilir.

*"Şir kimi vuruşuram*" şeirində müəllif uşağın özünü cəbhədə təsəvvür etməsi motivindən istifadə edir. Lirik qəhraman əlində silah deyil, qələm tutur.

*O qədər qələmin var,*
*İtirmişəm sayını"*
*Hücum çəkib tuturam*
*Erməni cəbhəsini..."* [4, s.290].

Burada qələm həm bilik, həm də mübarizə rəmzi kimi təqdim edilir. Şair uşaqlara anlatmağa çalışır ki, gələcəyin güclü əsgəri bugünün yaxşı təhsil alan şagirdidir. Əsərdə metaforik düşüncə üstünlük təşkil edir və qələm Vətən uğrunda mübarizənin mənəvi silahına çevrilir. Bu şeir Qarabağ qazilərinin mənəvi dünyasını uşaqların baxış bucağından təqdim edən təsirli poetik nümunədir. Müharibədən yaralanaraq qayıdan ata özünü fiziki cəhətdən məğlub hesab etsə də, mənəvi baxımdan qalibdir.

Atanın *"Bala, fərariyəm mən..."* ifadəsi ilk baxışda paradoksal görünür. Əslində isə bu, dərin psixoloji ironiyadır. O, cəbhədən yalnız yaralandığı üçün ayrıldığını nəzərdə tutur və döyüş yoldaşlarının yanında ola bilmədiyinə görə mənəvi narahatlıq keçirir. Şair bu vasitə ilə qazilərin psixoloji vəziyyətini incə bədii detallarla açmağa nail olur.

"Biz vətəndaş deyilik..." şeiri Azərbaycan-Türkiyə qardaşlığını uşaqların düşüncəsinə uyğun şəkildə poetikləşdirən əsərlərdən biridir.

*"Biz vətəndaş deyilik?!*
*Orda cənab Ərdoğan*
*Hayqırıb aslan kimi..."* [4, s.293].

Şair "bir millət - iki dövlət" ideyasını siyasi şüar kimi deyil, mənəvi birlik modeli kimi təqdim edir. Burada Azərbaycan ordusunun mübarizəsi ilə Türkiyənin mənəvi dəstəyi paralel şəkildə təsvir edilir. Şeirdə milli həmrəylik və türk dünyasının birliyi əsas ideya istiqamətini təşkil edir.

"Ey türkün övladları" şeiri çağırış ruhu ilə seçilən vətənpərvərlik nümunəsidir. Əsərdə müəllif türk övladlarını Vətənin müdafiəsinə səsləyir. *"Vurun!", "Qırın!", "Yaxın!", "Yıxın!"* kimi əmredici feillərin ardıcıl işlədilməsi şeirin ritmini sürətləndirir, emosional gərginliyi artırır və oxucuda mübarizə əzmi yaradır. Şeirdə qəhrəmanlıq, milli birlik və düşmənə qarşı qətiyyət ideyaları ön plana çəkilir. Müəllif burada yalnız Azərbaycanı deyil, bütövlükdə türk dünyasının həmrəyliyini vurğulayaraq Qarabağ savaşını ümumtürk həmrəyliyi kontekstində qiymətləndirir.

**Nəticə.** Qəşəm İsabəylinin vətənpərvərlik mövzusunda yazdığı şeirlər Vətən anlayışının uşaqların mənəvi dünyasında təbii və inandırıcı şəkildə formalaşdırılmasına xidmət edən bütöv poetik sistem yaradır. Bu sistemdə Vətən yalnız coğrafi məkan və ya dövlət anlayışı kimi deyil, milli kimliyin, ailə dəyərlərinin, tarixi yaddaşın, torpağa bağlılığın və gələcək nəsillər qarşısında məsuliyyət hissinin ifadəsi kimi təqdim olunur. Müəllif mürəkkəb ictimai və tarixi hadisələri uşaq psixologiyasına uyğun bədii vasitələrlə sadələşdirərək emosional təsir gücü yüksək olan poetik mətnlər yaradır. Qarabağ mövzusuna həsr olunmuş şeirlərdə müharibənin faciəvi nəticələri ilə yanaşı, milli birlik, qəhrəmanlıq, şəhidlik və qələbə ruhu ön plana çıxarılır. Folklor motivləri, dialoq forması, ritorik suallar, metaforalar, simvolik obrazlar və dil oyunları vətənpərvərlik ideyasının estetik dəyərini artırmaqla yanaşı, uşağın milli-mənəvi dünyasının formalaşmasına da təsir göstərir.

**Ədəbiyyat**

1. Ağazadə Z.Y. (2025), Elmi-pedaqoji ədəbiyyatda vətənpərvərlik tərbiyəsinin həlli məsələləri. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, No.6, 111-116.
2. Babayeva Ə. (1997), İstedad öz yolunu tapır. Ədəbiyyat qəzeti, 10 yanvar.
3. Əhmədova A. (2012), Azərbaycan Uşaq Ədəbiyyatı. Bakı: Elm və Təhsil, 122.
4. İsabəyli Q. (2022), Əsərləri Toplusu (uşaqlar və yeniyetmələr üçün), 2 cilddə, 1-ci cild (şeirlər, poemalar). Bakı: Şirvannəşr, 704.
5. İsabəyli Q. (2015), Leyləyin İntiqamı (şeirlər, hekayələr, nağıllar). Bakı: Şirvannəşr, 128.
6. Namazov Q. (2007), Azərbaycan Uşaq Ədəbiyyatı. Bakı, 444.
7. Kurt İ. (2009), Uşaq ədəbiyyatının pedaqoji mahiyyəti. Journal of Qafqaz University, Vol.26, No.1, 233-240.
8. Белинский В.Г. (1983), О Детской Литературе и Детском Чтении: Статьи и Рецензии. Москва, 287.
9. Горбатенко А.Н., Киняева А.А. (2019), Патриотическое воспитание младших школьников средствами художественной литературы. Начальная Школа, No.7, 45-49.
10. Ушинский К.Д. (1987), Родное Слово. Москва, 383.